*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 53-65* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.1.53*

***Tənqidi realizm və romantizm epoxası***

# Əbdürəhim bəy Haqverdiyevin publisistikası

**Salidə Şərifova**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: sharifovasalida@rambler.ru

**Annotasiya.** Əbdürəhim bəy Haqverdiyevin bədii yaradıcılığı ilə yanaşı, publisistik yazıları da Azərbaycan söz sənəti üçün əhəmiyyət kəsb edir. Ədib cəmiyyəti düşündürən problemlərə ziyalı mövqeyindən çıxış edərək münasibət bildirmişdir. Onun publisistikasının problematikası XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ictimaiyyətində baş vermiş sosial-siyasi və ictimai prosesləri, ədəbiyyat və incəsənət məsələlərini əhatə etməsi ilə diqqəti cəlb edir. Əbdürrəhim bəy Haqverdiyev publisist yazılarında Mirzə Fətəli Axundzadə yaradıcılığına geniş yer ayırmışdır. O, əsərlərində yalnız Azərbaycan ədəbiyyatını deyil, dünya ədəbiyyatını da gözəl bilməsini açıqlayır.
Ə.Haqverdiyevin publisist yazılarında obrazlar qalereyası zənginliyi ilə seçilir. Təsvir etdiyi hadisələri obrazlar vasitəsilə ifadə edən ədibin obrazları özlərini məhdud və geniş mənada əks etdirməyə qadirdir. Publisist yazılarında məhdud mənada təsvir etdiyi obrazlar silsiləsinə M.F.Axundzadənin, M.Qorkinin və digər ədiblər haqqında bəhs etdiyi məqalələrdə rast gəlinir. Geniş mənada təsvir etdiyi surətlər isə insanlarla bağlı olan canlı və cansız, yəni insan surətini, təbiət surətini, əşya surətini, heyvan surətini əhatə edir. Ə.Haqverdiyev qələmə aldığı publisist məqalələrdə bədii təsvir və ifadə vasitələrindən geniş şəkildə istifadə edir. Müəllif bədii dilin ən mühüm tərkib hissələri olan bədii təsvir vasitələrinə aid epitet, təşbeh, metafor, metonimiya, simvol, ifadə vasitələrinə aid bədii sual, kinayə, inversiya və s.-dən istifadə etməklə çatdırmaq istədiyi fikirləri, hadisələrin məğzini açıqlamağa nail olur. Ə.Haqverdiyevin istər bədii yaradıcılığının, istərsə də publisist yazılarının bədii dilinin tərkibi özünəməxsusluğu və zənginliyi ilə fərqlənir.
**Açar sözlər:** Əbdürəhhim bəy Haqverdiyev, publisistika, milli məfkurə, tənqid, məqalə

**Məqalə tarixçəsi:** göndərilib – 05.03.2024; qəbul edilib – 15.03.2024

# Abdurrahim bey Hagverdiyev's publicism

**Salida Sharifova**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: sharifovasalida@rambler.ru

**Abstract.** Along with Abdurrahim bey Hagverdiyev's artistic creations, publicist writings are also important for the art of speech in Azerbaijan. Adib expressed his attitude to the problems of the

society from the standpoint of an intellectual. The problematic of Abdurrahim bey Hagverdiyev's publicism attracts attention as it covers socio-political and social processes, literature and art issues that took place in the Azerbaijani community at the end of the 19th century and the beginning of the 20th century.
Abdurrahim bey Hagverdiyev devoted extensive space to the works of Mirza Fatali Ahundzade in his journalistic writings. In his journalistic work, A.Hagverdiyev reveals his excellent knowledge not only of Azerbaijani literature but also of world literature.
The gallery of images in A. Hagverdiyev 's publicist writings is distinguished by its richness. The images of the writer, who expresses the events he describes through images, are able to reflect themselves in a limited and broad sense. It is found in the articles about M.F.Akhundzade, M.Gorki and other writers. The images he describes in a broad sense include living and inanimate related to people, that is, human image, nature image, object image, animal image.
A.Hagverdiyev widely uses the means of artistic description and expression in his publicist articles. By using epithet, allusion, metaphor, metonymy, symbol, artistic question, sarcasm, inversion, etc., which are the most important components of the artistic language, which are the means of artistic description, he succeeds in explaining the ideas he wants to convey, the essence of the events. The composition of A.Hagverdiyev's artistic creativity and the artistic language of his publicist writings are distinguished by their uniqueness and richness.
**Keywords:** Abdurrahim bey Hagverdiyev, publicism, national ideology, criticism, article

**Article history:** received – 05.03.2024; accepted − 15.03.2024

## Giriş / *Introduction*

Ə.Haqverdiyevin bədii yaradıcılığı ilə yanaşı, publisistik yazıları da Azərbaycan söz sənəti üçün əhəmiyyət kəsb edir. Ədib cəmiyyəti düşündürən problemlərə ziyalı mövqeyindən çıxış edərək münasibət bildirmişdir. Onun qələmə almış olduğu “Bizim yabılığımız”, “Tənqidə tənqid”, “İki il”, “Beş il”, “Təcəttüri-nisvana dair”, “Müsəlmanlarda teatro”, “Azərbaycanda teatr”, “Artistlik sənəti haqqında”, “Pəri cadu” haqqında qeydlər”, “Abbas Mirzə Şərifzadə haqqında”, “Mirzə Fətəlinin faciəsi”, “M.F. Axundovun həyat və fəaliyyəti”, “Mirzə Fətəli və ərəb əlifbası”, “Maksim Qorkinin həyat və yaradıcılığı”, “Molla Nəsrəddin haqqında xatiratım”, “Keçmiş günlərdən”, “Ədəbi dilimiz haqqında” kimi məqalələri Azərbaycan ədəbiyyatını və ictimaiyyəti düşündürən problemlərə müəllif yanaşması ilə maraq kəsb edir. O, bu məqalələrdə dövrün aktual problemlərinə diqqət yönəltməyə cəhd etmiş, sosial-ictimai şəraiti özündə əks etdirmişdir.

## Əsas hissə / *Main part*

### Ə.Haqverdiyevin publisistikasının problematikası

Əbdürrəhim bəy Haqverdiyevin publisistikasının problematikası XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ictimaiyyətində baş vermiş sosial-siyasi və ictimai prosesləri, ədəbiyyat və incəsənət məsələlərini əhatə etməsi ilə diqqəti cəlb edir. Yazıçı publisist yazılarında milli məfkurənin formalaşmasında rol oynamış sənətkar və şəxsiyyətlərin taleyi kimi məsələlərin təsvirinə geniş yer ayırmışdır. Ədibin, “İki il”, “Abbas Mirzə Şərifzadə haqqında”, “M.F.Axundovun həyat və fəaliyyəti”, “Maksim Qorkinin həyat və yaradıcılığı” adlı publisist yazılarda bunun şahidi oluruq.

Ə.Haqverdiyev “İki il” publisist yazısında dahi satira ustadı Mirzə Ələkbər Sabirin ölməz, yaddaşlarda yaşayan obrazını gözümüzdə canlandırmağa qadir ola bilmişdir: “İki ildir ki, Sabirimiz əlimizdən gedib. İki ildir ki, Hophopumuz mollanümalara, zalım bəylərə, camaat qanı soran tacirlərə, millət qanını şüşəyə tutduran xanlara, on dəfə Qurana and içib, andını pozub, axırda məclisi-

millini topa tutduran şaha rahatlıq verməyinin səsi kəsilib” [1, s.321]. Bu fikirlərdə M.Ə. Sabirin cismani itkisinin ağırlığı əksini tapmışdır. Müəllif M.Ə.Sabirin cismani yoxluğunu incəliklə təsvir etməklə, ədibin qoyduğu irsin böyüklüyünü və əvəzolunmazlığını açıqlamağa nail ola bilmişdir: “Söz yox, ölümdən heç kəs qurtarmayacaq. Amma millət xoşbəxtliyinə ciddən çalışan bir vücudun qəflətən ortalıqdan götürülməyi adamı yandırar. Qəm çəkənlərimiz az, istirahət edib plov yeyənlərimiz çox; oda yanıb vərəm gətirənlərimiz az, bihəya, boynuyoğun, “millət necə tarac olur olsun” deyənlərimiz çox. Camaatın hər tərəfdən işıq gələn yollarını kəsib, qaranlığa salıb, cibini kəsənlərin hesabı bihəddü payan, amma Sabirimiz bir, o da qara torpaq altında” [1, s.321-322]. Mirzə Ələkbər Sabir irsinin yüksək dəyərləndirilməsi günümüzdə də aktuallıq kəsb etməkdədir. M.Ə.Sabirin ədəbi irsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarına əsasən Azərbaycan Respublikasının dövlət varidatı elan edilmişdir.

“Beş il” adlı publisist yazısında isə yazıçının “Molla Nəsrəddin” məcmuəsinin ürəyi” adlandırdığı Əliqulu Nəcəfzadənin öldürülməsi faktı oxuculara təqdim edilmişdir. Müəllif cinayətin baş verdiyi tarixi olduğu kimi oxucuya təqdim etməyi də unutmur: “On doqquzuncu ilin fevral ayının soyuq bir sübhü idi” [1, s.331]. Publisist yazıda Əliqulu Nəcəfzadənin qəddarcasına qətlə yetirilməsi ziyalıların susdurulması yolunda atılan mənfur əməllərdən biri olaraq vurğulanmışdır. Müəllif ölümün insana qalib gələ bilməməsi amilini də qabarda bilmişdir: “...döşəmənin üstündə Əliqulu Nəcəfzadənin beş-altı güllə ilə deşilmiş nəşi düşüb, onun həmişəgülər dodaqları ki, lətifələr mənbəyi idi, həmişəlik yumulub; onun həmişə fərəhlə dolu və gələcəyə ümidvar gözləri bir nöqtəyə dayanıb baxırlar, guya ki, mərhum dünyaya, fələyə, təbiətə və cəmi məxluqata mühüm bir sual verib, cavab gözləyir: – Əcəba, məni nə üçün öldürdülər?!” [1, s.331]. Müəllif Əliqulu Nəcəfzadəyə atılan gülləni “Molla Nəsrəddin” məcmuəsinə atılan güllə kimi dəyərləndirməyi məhz xalqın tərəqqisinə və gələcəyinə vurulan zərbə kimi qəbul edir: “Əliqulu Nəcəfzadəyə dəyən güllə “Molla Nəsrəddin” məcmuəsinin ürəyinə dəydi.” [1, s.332]. Müəllif bununla Əliqulu Nəcəfzadənin ölümünü ziyalılara qarşı yönəlmiş cinayət hesab etmişdir.

Ə.Haqverdiyevin qələmə aldığı “Təsəttüri-nisvana dair” məqaləsində biz X.X.Səbribəyzadənin ədib tərəfindən bədii yaradıcılığının qəbul edilməməsinin şahidi oluruq. Xalid Xürrəmini “xanəbəduş, bambılı bir şair” adlandırmış yazıçı onu belə təqdim etmişdir: “İndi gələk “Şəlalə” üstünə. Səbribəyzadə deyəndə, Anadoludan gəlmiş xanəbəduş, bambılı bir şairdi. Bu bədbəxt Əbdülhəmidinmi cövründən, ya cavan türklərinmi cümləsindən qaçıb gəlib özünü sıxıb bir nəfər sərmayədarın buşqağına. Bu şəxs də bunun qabiliyyətinə bələd olub, gətirib bir jurnal bina edib, onu da əyləşdirib idarənin başında, özünə deyibdir ki, əgər “hürriyyəti-nisvan” – filan adı çəkərsən, səni birbaş Anadoluya göndərrəm. Məndən məvacib alırsan, türkün məsəlini həmişə qulaqlarına güşvarə et, yəni “ağa buyurur sür dərəyə – sür dərəyə”. “İqbal” idarəsində əyləşənlər də həmin dərəyə sürənlərdirlər” [1, s.325]. Ə.Haqverdiyev bununla yalnız X.X.Səbribəyzadəni söz sənətinə aid insan hesab etməmiş, həmçinin Azərbaycanda “hürriyyəti-nisvan”ın qarşısına almağa cəhd edən, Azərbaycan dilini osmanlılaşdırmağa can atan “xanəbəduş, bambılı bir şair” adlandırmışdır.

X.X.Səbribəyzadənin öz həmkarları tərəfindən qəbul edilməməsi faktı hələ öz sağlığında, yəni o dövr ədəbiyyatında özünü göstərməkdədir. Belə ki, Əli Nəzmi Xalid Xürrəm Səbribəyzadəni “Şəlalə” jurnalında yol verdiyi özbaşınalığa görə tənqid edərək, onun Ana dilimizi korlaması kimi fəaliyyətini tənqid atəşinə tutmuşdur:

*“Şəlalə” ilə çox vuruşduq biz*
*Yoxdu bu jurnalda türk dilindən iz.*
*Yarı ərəbcəydi əşar, məqalə*
*Gülmək lazım idi bu qəmli halə.*
*“Qonağa hörmət”i atıb unutduq,*
*Səbribəyzadəni atəşə tutduq.*

*Həqqiyə heç verək olmaz idi həqq,*
*Ona dil öyrətmək lazımdı mütləq.*

Əli Nəzminin X.X.Səbribəyzadəni tənqid etməsini nəzərə alsaq, Ə.Haqverdiyevin fikirlərində haqlı olduğunun şahidi oluruq. X.X.Səbribəyzadənin bu cür fəaliyyət göstərməsinin ziyanlı məqamlarına Əhməd Cavad da toxunmuşdur: “Düşünüb yazmaq əlindən gəlməyən qələminiz, doğrudan da, “altun”danmı, yoxsa İstanbuldakı o eski fikirli, dargözlü qələm arqadaşlarınız tərəfindən hədiyyə olunan həzrəti-Nuh qələmlərindənmidir? Burası mənim ən çox maraq etdiyim bir nüqtədir”. Ə.Cavad X.X.Səbribəyzadənin düşünüb yaza bilmədiyini qabartmışdır. Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, Ə.Haqverdiyev X.X.Səbribəyzadəyə münasibətində şəxsi mənafelərini güdməmiş, gündəmdə olan ədəbiyyatla, ana dili ilə bağlı olan problemlərə münasibətini bildirmişdir.

**Ə.Haqverdiyevin publisistikasında ədəbiyyatşünaslıq məsələləri**

Əbdürrəhim bəy Haqverdiyev publisist yazılarında Mirzə Fətəli Axundzadə yaradıcılığına geniş yer ayırmışdır. Ədibin “Mirzə Fətəlinin faciəsi”, “M.F.Axundovun həyat və fəaliyyəti”, “Mirzə Fətəli və ərəb əlifbası”, “Azərbaycanda teatr” adlı məqalələrində M.F.Axundzadənin həyat və yaradıcılığı ilə bağlı maraqlı məqamlara aydınlıq gətirilmişdir.

Ə.Haqverdiyev “Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti” adlı publisist yazısında ədibin anadan olduğu dövrün mənzərəsini yaratmağa da nail olur. Ə.Haqverdiyev M.F.Axundzadənin ağır bir dövrdə dünyaya gəlməsi faktını incəliklə təsvir edir: “1812-ci il idi. Napoleonun qoşunları Moskvaya doğru hərəkət edirdi. Zaqafqaziyada Nadir şah imperiyasının xarabalıqları üzərində yaranmış asılı və yarımasılı xanlıqlar Pavel və Aleksandrın əlindən bir cüt general epoleti alan və xalqla istədikləri kimi rəftar edən despotlar tərəfindən idarə olunurdu. Xalq onların zülmü altında inləyirdi. ...Xalqın ağlında və düşüncəsində çox böyük çevriliş yaradan ilk Azərbaycan dramaturqu və mütəfəkkiri M.F.Axundov belə amansız cəhalətin hökm sürdüyü bir zamanda, 1812-ci ildə Şəki xanlığının mərkəzi Nuxa şəhərində doğulmuşdur” [1, s.336-337].

Ə.Haqverdiyev M.F.Axundzadənin istedad sahibi olmasını xüsusi vurğulamışdır. Ədibin qələmə aldığı komediyaları xüsusi qiymətləndirərək qeyd etmişdir ki, “...bu komediyalar qələm təcrübəsi deyil, istedadla yazılmış əsərlərdir, yaradıcılıq inciləridir”. Ə.Haqverdiyev Mirzə Fətəlinin istedadını və yazmaq bacarığını bir cümlə ilə ifadə etməyə nail ola bilmişdir: “Teatr görmədən (o zaman Tiflisdə teatr yox idi), səhnə ilə qətiyyən tanış olmadan, Qoqol və Molyerin əsərlərindən başqa heç bir şeylə tanış olmadan belə nümunəvi komediyaları ancaq Mirzə Fətəli Axundov kimi çox böyük istedada malik bir adam yaza bilərdi.” [1, s.339].

Ə.Haqverdiyevin “Mirzə Fətəlinin faciəsi” adlı məqaləsində M.F.Axundzadənin ölümündən 50 il keçməsi faktına toxunulmuşdur: “Mart ayının 12-də Mirzə Fətəlinin vəfatından tamam 50 il keçir” [1, s.335]. Yazıçı həmkarının faciəli həyat sürməsi faktına biganə qala bilməmiş, bu fakta münasibətini bildirmişdir: “Mirzə Fətəlinin ömrü ictimai sahəyə qədəm qoyandan axır nəfəsinə qədər böyük bir faciə içərisində keçmişdir” [1, s.335].

Ə.Haqverdiyev “1849-cu ildə canişin Voronsovun əmri ilə Tiflisdə teatr binası” tikilməsi faktına toxunaraq, “erməni, gürcü və Azərbaycan dillərində teatr əsərləri yazmaq üçün canişin üç komisyon təşkilinə əmr” verməsi faktını qeyd etmişdir. Müəllif Azərbaycan ədəbiyyatında dram əsəri yazan bir kəsin olmaması amilini qabartmağa nail olur: “Azərbaycan komisyonunda işləmək üçün Mirzə Fətəlidən başqa bir adam tapılmadı. Axırda Mirzə Fətəli özü təklikdə komediyalar yazmağa başladı”.

Ədib M.F.Axundzadənin əməyinin öz sağlığında qiymətləndirilməməsi faktına da toxunmuşdur. Ədib M.F.Axundzadənin qələmə aldığı dram əsərlərinin tamaşaya qoyulmamasını onun faciəsi kimi dəyərləndirmişdir. Sağlığında dram əsərlərinin səhnədə oynanılmasını görməməsi məhz M.F.Axundzadənin faciəsi kimi dəyərləndirilmişdir. Bu ağır reallığı ədib belə əks etdirmişdir: “...ömrünün axırına qədər öz əsərlərini Azərbaycan dilində səhnədə görməyə müvəffəq olmadı.

1873-cü ildə Bakıda birinci dəfə olaraq Azərbaycan dilində "Hacı Qara" komediyasının oynanılmasının xəbərini Həsən bəy Zərdabidən alıb, ona belə bir cavab verdi: "Mən qocalmışam və qəbir evinə yaxınlaşmamı yəqin etmişdim. Əmma sizin bu xəbəriniz mənim ömrümün on sənə daha uzanmasına səbəb oldu" [1, s.335-336].

Əbdürrəhim bəy Haqverdiyev Mirzə Fətəli Axundzadə kimi şəxsiyyətlərin fəaliyyətinin düzgün qiymətləndirilməməsini "Mirzə Fətəlinin faciəsi" adlı publisist yazısında ədibin dəfn mərasiminin səhnəsinin təsvirində də verməyə nail ola bilmişdir: "Mirzənin vəfatı da faciəsiz keçmədi. Şeyxül-islam Molla Əhməd Mirzənin vəfat xəbərini eşidib dedi: "Mən Mirzə ilə çox müsahiətdə olduğumdan onun əqidələrinə dürüst bələdəm. Bu bələdiyyət, məni onun namazını qılmaqdan imtina etməyə məcbur edir". Bu sözü eşidib qalan mollalar da Mirzənin namazını qılmaqdan boyun qaçırtdılar. Mirzəyə namaz lazım deyildi. Fəqət bu, onun əqrəbası üçün bir nisgil oldu. Çox danışıqdan sonra əməleyi-mövtadan Molla Hüseyn adlı bir kişi gedib onun namazını qıldı. Mirzə ömrünün axırına qədər camaatı bürümüş zülmət və mövhumatla mübarizə etdi. Amma xalq bunun bu mübarizəsini dinsizlik adlandırıb cənazəsini yerdən götürmək istəmədilər. Üç gün cənazəsi evdə qalandan sonra canişin divanxanasının qulluqçuları tərəfindən qaldırılıb qəbiristana aparıldı. "Mömінlər" onun cənazəsinin dalınca da getmədilər. Bir neçə nəfər hər birisi üç rublə alıb, onu qəbrə qoymağa razı oldular" [1, s.336]. Bunlar acı həqiqətlər olsa da, yaşanmış reallıq idi. Bu Mirzə Fətəli Axundzadəyə qarşı xalqının etdiyi bədnam, utandırıcı əməllərindən biri idi.

Ə.Haqverdiyev M.F.Axundzadənin "Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti" adlı publisist yazısında əlifba məsələsinə dair fikirlərini səsləndirmişdir. Ədibin M.F. Axundzadənin ərəb əlifbası ilə bağlı düşüncələri və əlifbanın dəyişdirilməsi haqqında təklifləri "Mirzə Fətəli və ərəb əlifbası" adlı publisist yazıda daha geniş əksini tapmışdır.

Ə.Haqverdiyev M.F.Axundzadənin fikirləri ilə həmrəy olmasını elə məqalənin başlanğıcında əks etdirmişdir: "Ərəb əlifbasının türk və fars dillərinə uyğun olmaması hamıya aydındır. Həmçinin, bu əlifbanın öyrənilməsi, onunla yazmaq və xüsusən bu əlifba ilə yazılmış kitabları oxumaq nəinki çocuqlar, hətta savadlı şəxslərin çoxları üçün bir çətin məsələdir. Buna da ən böyük səbəb hürufi müsəvvitənin yazılmamasıdır [1, s.345].

"Azərbaycanda teatr" məqaləsində Mirzə Fətəli Axundzadənin "Lənkəran xanın vəziri" komediyasının Azərbaycan teatrı tarixində birinci Azərbaycan tamaşası olması faktına nəzər salınmışdır. Tamaşanın 1873-cü ilin martında Bakıda oynanılması faktı müəllif tərəfindən vurğulanmışdır. Ə.Haqverdiyev Mirzə Fətəli Axundzadəni "Azərbaycan dramaturgiyasının banisi" [1, s.362] hesab etmişdir.

Ə.Haqverdiyev publisistik əsərlərində yalnız Azərbaycan ədəbiyyatını deyil, dünya ədəbiyyatını da gözəl bilməsini açıqlayır. Ədibi "Maksim Qorkinin həyatı və yaradıcılığı" adlı publisist yazısında rus ədəbiyyatının nümayəndəsi olan Maksim Qorkinin həyat və yaradıcılığına bələd olan bir ziyalı kimi görürük. Ə.Haqverdiyev "...inqilab ədəbiyyatında "Fırtına elçisi" adını almış və Maksim Qorki təxəllüsü ilə məşhur Aleksey Maksimoviç Peşkov"un həyat və yaradıcılığına geniş nəzər sala bilir. Müəllif Maksim Qorkinin yaradıcılığına "Makar Çudra" adlı hekayə ilə başlaması amilinə də toxunmuşdur: "1892-ci ildə sentyabr ayının 12-də "Qafqaz" qəzetində Qorkinin "Makar Çudra" adlı birinci hekayəsi çap olunur" [1, s.348]. Ə.Haqverdiyev M.Qorkinin bədii yaradıcılığı ilə yanaşı onun inqilabi fəaliyyəti haqqında da geniş məlumat verir.

Ə.Haqverdiyevin publisist yazılarında bəzi bədii əsərlərin necə yaranması faktı da əksini tapmışdır. Məsələn, "Mozalanbəyin səyahətnaməsi" əsərinin meydana çıxma tarixçəsi izlənilmişdir. Məqalədə təsvir edilən hadisə və obrazlar tarixi fakt və tarixi şəxsiyyətlərin təsviri kimi əhəmiyyət kəsb edir. Məqalədə, Z. Marağayinin "İbrahimbəyin səyahətnaməsi" romanının adının çəkilməsinə, Faiq Nemanzadə, Salman Mümtaz, Qurbanəli Şərifzadə kimi şəxslərin xatırlanmasına rast gəlinir. Ə.Haqverdiyevin "İbrahimbəyin səyahətnaməsi" əsərinə nəzirə yazmaq istəyinə Mirzə Cəlilin cavabı məqalədə əksini tapmışdır: "İbrahimbəyin səyahətnaməsi"ndən söhbət olduqda mən dedim:

– Nə olardı bu kitaba nəzirə bir “Səyahətnameyi-Molla Nəsrəddin” də olaydı. Aya, görərsən Molla Nəsrəddin islam aləmini səyahət etsə, onun başına nə müsibətlər gələ bilər. Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi: – Gəlin biz “Mozalan”ı gəzdirək; ancaq bunun səyahətnaməsini öz aramızda bölüşdürək, hər kəs onu özü görüb bildiyi yerə aparıb səyahət etdirsin; oxuyanlar güman etsinlər ki, həqiqət bu adam gəlib, buraları görüb bu felyetonları yazmış” [1, s.373].

Ə.Haqverdiyevin M.Qorkinin bədii yaradıcılığını təhlil süzgəcindən keçirərkən, ədibin qələmə aldığı əsərlərin janrlarına münasibətini bildirməsi də diqqətdən yayınmır. Məsələn, M. Qorkinin “Ana” romanının janrını “böyük hekayə” kimi təqdim etmişdir: “Amerikada olduğu zaman Maksim Qorki “Ana” adlı məşhur böyük hekayəni yazdı” [1, s.350].

Maksim Qorkinin bədii yaradıcılığını geniş şəkildə tədqiq etməyə nail olan Ə.Haqverdiyev ədibin bədii yaradıcılığını dövrləşdirməyə nail olur. Ə. Haqverdiyev ədibin bədii yaradıcılığını üç dövrə ayırmışdır: “Maksim Qorkinin bədii yaradıcılığını üç dövrə təqsim etmək olar: Birinci dövr – 1892-ci ildə Tiflis qəzeti “Qafqazda” onun ilk hekayəsi “Makar Çudra” çıxandan 1905-ci ilə kimi. İkinci dövr – 1905-ci ildən 1917-ci ilə kimi. Üçüncü dövr – 1917-ci ildən bu günə kimi” [1, s.353]. Daha sonra Ə.Haqverdiyev bu dövrlərin əsas məğzinə varmağa nail ola bilir, aydınlıq gətirir. Birinci dövr yaradıcılığında “öz zəmanəsinin xalis oğlu” olması, ikinci dövr yaradıcılığında “irtica uzandıqca, onun bədii əsərlərində inqilabi məzmunların azalması”, üçüncü dövr yaradıcılığında “iki əvvəlinci dövr Rusiya həyatının tarixi nöqtələrini göstərirsə, onun axırıncı on illik fəaliyyətində bunun” görünməməsi vurğulanmışdır.

**Ə.Haqverdiyevin publisistikasında bədii tənqid məsələləri**

Əbdürrəhim bəy Haqverdiyevin publisistikasında tənqidə münasibət bildirilməsi diqqətdən yayınmır. Ədibin “Tənqidə tənqid” məqaləsində zəmanəmizdə də aktuallıq kəsb edən ədəbiyyatşünaslıq elminin sahələrindən olan ədəbi tənqidə münasibət əksini tapmışdır. Yazıçının ədəbi tənqidi baş verən dövrün ədəbi prosesini əks etdirir. Müəllif qələmə almış olduğu əsərinin dəyərini müəyyənləşdirməyə qadir ola bilir. Ə.Haqverdiyev Hacı Zeynalabdin Tağıyevin teatrında oynanılmış “Ağa Məhəmməd şah Qacar” əsəri haqqında yazılmış tənqidi yazıya münasibətini bildirmişdir. Münasibət bildirən müəllif bədii nümunə əsasında ümumiləşdirmələr apara bilmiş, əsərin, həmçinin dövrün ədəbi prosesinin dərk edilməsində yardımçı rolunda çıxış etmişdir. Ədib əsəri haqqında yazılmış tənqidlə razılaşmayaraq, özünün əlavələrini etmək istəməsini məqalənin başlanğıcında oxucusuna təqdim etmişdir: “...mənim “Ağa Məhəmməd şah Qacar” sərlövhəli əsərim barəsində bir qəzetə bir böyük tənqid yazmış. Tənqid nə dil ilə yazılıb, oxucular özləri görürlər və mənim haman dildə ona cavab verməyimi özümə naşayistə bilib, yenə söz demək istəyirəm” [1, s.319].

Əbdürrəhim bəy Haqverdiyev tənqiddə müəllif şəxsiyyətinin tənqid edilməsinin yol verilməməsinin tərəfdarı kimi çıxış edərək qeyd etmişdir ki, “...hər bir təsnif barəsində hər şəxs öz təsəvvürünü yazmaqda və danışmaqda hürrdür. Amma şəxsiyyətə toxunmaq, şəxsiyyət haqqında iftira, böhtan və yalan danışmaq ədib sifəti deyil” [1, s.319].

Ə.Haqverdiyev tənqidçilərin olmayan problemləri qabartmaları amilini ürəkağrısı ilə vurğulayır. O, bu problemlə üzləşdiyi üçün bunu faktlarla isbat etməyə cəhd etmişdir: “Qəzetənin mənim türk dili bilməməyimə dəlili bu sözlərdir: “Sizə kömək bağlayıb gəlmişəm”, “Zəhi böyük nainsaflıqdır”, “Nalayiq şeylər üzrə köpük çıxıb olur”.

Senzor tərəfindən möhürlənmiş və qələm dəyməmiş kitab mənim stolumun bu saət üstündədir. Hər kəs xahiş etsə, buyurub görə bilər ki, bu istinad verilən sözlərin heç birisi mənim kitabımda yoxdur və bunu qəzetə özü ixtira edib” [1, s.320]. Həqiqətin dərinliyinə varanda, tənqidçinin ədəbi əsərlərə və müəllifə bu cür yanaşmasına haqq qazandırmaq olmur. Bu cür yanaşmalar əsərin düzgün dəyərləndirilməsinə, ədəbi prosesin dərk edilməsinə maneə törədir, düzgün təsəvvür yaradılmasına mane olur.

**Ə.Haqverdiyevin publisistikasında teatrşünaslıq məsələləri**

Ə.Haqverdiyevin publisist yazılarında teatr sənəti haqqında yazılar geniş yer tutmaqdadır. Ədibin “Müsəlmanlarda teatro”, “Artistlik sənəti haqqında”, “Azərbaycanda teatr” və s. teatr

sənətini açıqlayan mükəmməl məqalə nümunələri var. Azərbaycan teatrı haqqında maraqlı məqalələr qələmə almış Ə.Haqverdiyev həm dram əsərləri qələmə almış, həm də teatr truppalarına rəhbərlik etmişdir: "Tiflisdə Ə.Haqverdiyevin bilavasitə rəhbərliyi və təşkilatçılığı ilə "İttihad" və "İbrət" adlı iki truppa fəaliyyət göstərirdi" [4, s.70].

Ə.Haqverdiyevin "Müsəlmanlarda teatro" adlı publisist yazısında Türkiyə və Azərbaycanda özünü göstərmiş teatr, dram əsərlərinə münasibət əksini tapmışdır. Türkiyə və Azərbaycan teatr sənəti arasında müqayisə aparmağa nail ola bilən ədib tarixə də ekskurs etməyi unutmur. Türkiyədə dramın yaranması tarixinin Əbülhəmid sultanlığı dövrünə təsadüf etməsinə toxunur: "Türkiyədə dramaya dair təsnifat ancaq Əbdülhəmid sultanlığı zamanında aləmə gəlmişdir. Amma bu müstəbidin zamanında bütün ədəbiyyat sıxıldığı kimi, teatro da boğulmaqda idi. Buna görə də biz Türkiyədə lazımlı dərəcədə bir teatro görə bilməyirik. Yüngül fransız məzhəkələri, fars, operetta – budur türk teatrolarının Əbdülhəmid sultanlığı zamanında göstərdikləri. Hərçənd türk dilində Şekspir, Şillerin təlifatı, tərcümələri var idi. Amma bunlar teatroya yaxın buraxılmazdı" [1, s.328-329].

Türkiyədə formalaşmış dram əsərlərinin teatr səhnəsi üçün yararlı olmadığı amilinə ciddi yanaşan Ə.Haqverdiyev bunu faktlarla sübut edir. "Türkiyədə dram təlifatı yoxdur, xeyr, onlar çoxdur, amma onlardan heç biri teatroya və səhnəyə uyğun deyildir. Çünki Türkiyə teatrolarının sırasında ciddi teatro olmadığında görə müəlliflər öz təlifatını səhnədə görməyə ümidvar deyildir. Ona görə də öz kitablarını fəqət qiraət üçün yazırdılar, nəinki teatro və səhnə üçün" [1, s.329].

Ə.Haqverdiyev Azərbaycan dram sənətinin Türkiyə dram sənətinə nisbətən ürəkaçan, ümidverən olması amilini də qabarda bilmişdir. O, bu amili belə açıqlamışdır: "Neçə il bundan əqdəm Tiflisdən türk aktyorları İstanbula gedib Azərbaycan müsənniflərinin qələmə aldığı pyesləri səhnəyə vəz etmişlər. Nəticə nə olmuşdur? Türkiyə qəzetləri etiraf etmişlər ki, Azərbaycan teatrosu Türkiyə teatrosunu adlayıb irəli getmişdir" [1, s.330].

Ə.Haqverdiyev "Müsəlmanlarda teatro" adlı publisist yazısının adına çıxardığı müsəlmanlarda teatro amilinə aydınlıq gətirir. Ədib açıqlamaq istədiyi məqamı açıqlayır, müsəlmanlarda teatrın keçdiyi tərəqqi yoluna nəzər salır: "Türkiyədə teatro axır vaxtlara kimi bu haldadır. Orta Asiya bu vaxta qədər öz dramaturquna malik deyildir. Yerli müsəlmanların arasında teatro 1905-ci ildən sonra meydana gəlmiş və Azərbaycan müəlliflərinin yazdığı pyeslər ilə doyuzdurulur. Volqaboyu tatarlarının 1905-ci ilədək nə teatro, nə də repertuarları olmuşdur. Kazan, Ufa, Orenburq mətbəələri, demək olar ki, ancaq Quran və dualar təbi ilə məşğul idilər [1, s.330]. Ə.Haqverdiyev müsəlman xalqları arasında teatrın, yəni dram sənətinin 1905-ci ildən sonra formalaşmasını göstərmişdir.

Ə.Haqverdiyevin həcmcə kiçik olan "Artistlik sənəti haqqında" publisist yazısı Sidqi Ruhullaya həsr edilmişdir. Ədibin bəradər adlandırdığı Sidqi Ruhullanın Azərbaycan incəsənəti qarşısındakı əvəzsiz xidmətlərinə nəzər salınmışdır: "... Bəradərim, dünyada insaniyyətə, millətə və mədəniyyətə ən böyük xidmətlərdən biri artistlikdir. Artist üzünü unluyub acı həqiqətləri sənətin şəkəri ilə şirinlədib camaata yedirdir. Bu cəhətdən artistliyin yolları nə qədər ağır, tikanlı olsa da, qiymətlidir. Çünki nəticəsi parlaqdır. Bu sözləri həmişə xəyalında saxla" [1, s.333].

Yazıçının həcmcə kiçik olan publisist yazılarından biri də "Abbas Mirzə Şərifzadə haqqında" adlı məqaləsidir. Məqalədə aktyorluq sənətində uzun müddət fəaliyyət göstərmiş incəsənət adamlarının uzun, bununla bərabər ağır yol keçmələri faktına toxunulmuşdur: "Aktyor ömründə 20 illik yol uzun bir yoldur. Türk aktyorunun ömründə isə bu yol iki və üçqat uzundur. Türk aktyorunun yolunun iki tərəfi istehzadan, həqarətdən yapılmış, sərac yol özü isə iti tikanlar ilə döşənmiş çuxurlardan və uçurumlardan ibarətdir" [1, s.334]. Ə.Haqverdiyev Abbas Mirzə Şərifzadənin bu şərəfli və ağır yolda özünəməxsus yer tutması amilindən də söz açmışdır: "Abbas Mirzə ətrafını çulğalayan bir böylə maneələrə baxmayaraq, müstəqim, mətin, ümidlə dolu bir ürəklə bu uzaq yolu qəhrəmanlıqla keçib türk səhnəsində parlaq bir məkan tutmuşdur. Səhnəyə qədəm qoyandan indiyədək Abbas Mirzə Şərifzadə rol arxasınca gəzməmiş, həmişə rol onu axtarmış,

tədriclə bir məktəb uşağıdək xırdaca rollardan başlamış, axırda bu mövqeyə çatıb türk səhnəsinin zinəti və Avropa miqyasında tanınan aktyoru olmuşdur" [1, s.334].

Ə.Haqverdiyev "Azərbaycanda teatr" adlı publisist yazısında Azərbaycanda formalaşmış teatrın tərəqqisini nəzərdən keçirməyə nail ola bilir. Müəllif xalq tamaşalarını Azəbaycan teatrının başlanğıc nöqtəsi kimi verməsində haqlıdır: "Xalq tamaşaları hər bir zaman xalqların həyatında mühüm rol oynamışdır. Açıq meydanlarda, həvəskar camaatın gözü qabağında və heç bir dekordan istifadə etmədən oyun çıxaran müxtəlif sehrbazlar və yalançı pəhləvanlar kütlənin diqqətini həmişə cəlb etmişlər" [1, s.357].

"Azərbaycanda teatr" adlı publisist yazıda "Musanın əsası" haqqında əfsanəyə, "Şah Səlim" oyununa nəzər salınır, "İsanın anadan olmağından beş əsr əvvəl Yunanıstanda Aristofanın nümunəvi bir teatrı olması", yunanların teatrı hindlilərdən götürmələri, kəndirbazlığın geniş yayılması kimi faktlar müəllif tərəfindən vurğulanır. Maraqlı məqamlardan biri kimi kəndirbazlığın Şərqin tamaşaları içərisində mühüm yer tutması, Azərbaycanda kəndirbazların çoxunun ləzgilər olması faktı da müəllif tərəfindən qeyd edilir.

Məqalədə "müxtəlif tamaşa formaları içərisində mütrüb oyunlarını"nın qeyd edilməsi, yanlarında "antreprenyorlar" gəzdirmələri faktının vurğulanması Ə. Haqverdiyevin mütrüblərin onlara bir kölə kimi tabe olması da qeyd edilir. Ədib "Antreprenyor" olan kəslərin mənəvi əxlaqlarının kasad olmasını da məqalədə göstərir: "Antreprenyor" mütrübləri mənəvi və fiziki mənada pozğunluğa öyrədirdi; şəhərləri gəzdirərək eyni zamanda həm "tamaşa" düzəldir, həm də uşaqla alver edib onları istismar edirdilər" [1, s.359].

Müəllif tamaşa forması kimi Əli xəlifə və onun nəvə-nəticəsinin şərəfinə "Mədhiyyələr" oxunmasını, ölən böyük qəhrəmanları ağlamaq üçün "yuq"un təşkil edilməsini, "Şaxsey-vaxsey" mərasiminin düzəldilməsini və "Fərat sahillərində baş verən faciə "Şəbeh" adlanmasını məqalədə vurğulayır. Şəbehlərin necə həyata keçirilməsini incəliklə təsvir edən Ə.Haqverdiyev onun janrına da toxunur: "Şəbehlər naməlum müəlliflər tərəfindən şeirlə yazılmış birpərdəli pyeslərdən ibarətdir. Pyesdə iştirak edənlər iki cəbhəyə ayrılırlar. İmamla onun tərəfdarları və İmamın düşmənləri. Bütün iştirak edənlərin hamısı birlikdə meydana toplaşır, tamaşa yerini dolaşır və müqəddimə oxuyurlar. Bundan sonra "artistlər" – hər kəs öz yerində oturur: İmam və onun tərəfdarları meydanın bir guşəsində salınmış xalça üstündə əyləşirlər, "müxalif" adlanan düşmən tərəf isə taxt və kürsü üstündə otururlar. Tamaşa başlanır" [1, s.360].

Ə.Haqverdiyev bu cür tamaşaları misteriya adlandırmışdır: "Bu, Azərbaycanda misteriya tamaşalarının xeyli orijinal cəhətlərindən birisidir. Müəlliflər misteriyaların ssenarilərini düzəldərkən Yezidə və onun adamlarına fövqəladə bir nifrətlə yanaşırdılar" [1, s.361]. Misteriya orta əsr Avropa teatrında din ilə əlaqəsi olan janr növüdür. Misteriyalarda süjet xətti dini kitablardan, adətən, Bibliyadan, İncildən götürülərək məişət səhnələr ilə sintez şəklində təqdim edilirdi. Ə.Haqverdiyev misteriyaların müəyyən epizodlardan ibarət olması amilini nəzərə almış, bunu belə təsnifat etmişdir: "1)"Peyğəmbərin qətli", 2)"Əlinin qətli", 3)"Müslümün Kufədə qətli", 4)"Müslümün oğlanlarının qətli", 5)"Mədinədən səfər", 6)"Fərat sahilində Hürlə görüş", 7)"Hürrün peşmançılığı və ölümü", 8)"Kərbəla davası", 9)"Şamda Səkinənin ölümü", 10)"Firəng səfirinin səhnəsi", 11)"Əsirlərin xilas edilməsi", 12)"Əsirlərin Kərbəlaya varid olması və qəbirləri ziyarət", 13)"Mədinəyə varid" və i.a." [1, s.362].

Ə.Haqverdiyev Azərbaycan teatr tarixinin ömrünün qısa olması faktına toxunmuş, bu amili belə əsaslandırmışdır: "Sözün müasir mənasında Azərbaycan teatrının tarixi çox qısadır. Birinci Azərbaycan tamaşası 1873-cü ilin martında Bakıda oynanılmışdır. Mirzə Fətəli Axundovun "Lənkəran xanın vəziri" komediyası göstərilmişdi" [1, s.362].

**Ə.Haqverdiyevin publisistikasında dilçilik məsələləri**

Ə.Haqverdiyev publisist məqalələrində dilə olan münasibətinin istər bilavasitə, istər bilvasitə olaraq çatdırır. Ədib "...Osmanlı ədəbiyyatının böyük bir qismi Rusiya imperiyasında yaşayan türk-

tatar xalqlarının ədəbiyyatı üzərində öz ağalığını təmin etmək" üçün apardığı siyasətə nəzər salır. Ə. Haqverdiyev "bu hərəkatın əsasını pantürkizm və bütün türk-tatar aləminə Osmanlı dilini qəbul etdirmək arzusu təşkil" etməsi, bu məqsədlə də "Osmanlı pantürkistləri Bakıya üç jurnalist – Əlibəy Hüseynzadə, Əhməd Kamal və Səbribəyzadə Xalid Xürrəmi ezam" [1, s.368] etmələri faktına toxunaraq, ana dili məsələlərinə diqqət yönəltməyə cəhd edir. Ə.Haqverdiyev Ə.Hüseynzadənin, Ə.Kamalın və S.X.Xürrəminin "rəhbərliyi altında, demək olar ki, bütün yazıçı gəncliyi öz tərəfinə cəlb edən "Füyuzat", "Şəlalə" adlı jurnallar nəşr edilməsinə başlanılmasını ana dilinə qarşı aparılan siyasət kimi anlayaraq qeyd etmişdir: "Yalnız kiçik bir yazıçı qrupu "Molla Nəsrəddin" jurnalı ətrafında toplaşaraq, Azərbaycan dilini osmanlılaşdıranlarla açıq və barışmaz mübarizə aparırdı. Bu mübarizəyə baxmayaraq, Osmanlı dilini təbliğ edənlər özlərindən sonra çox pis bir irs qoyub getdilər ki, bizim yazıçı gənclik indi də ondan yaxasını tamamilə qurtara bilməmişdir" [1, s.368].

Ə.Haqverdiyev "Ədəbi dilimiz haqqında" adlı publisist yazısında "Azərbaycan türklərinin ədəbi bir dili varmı, ya yoxmu?" [1, s.376] sualına cavab axtarır. Ədib "1905-ci il inqilabından sonra Azərbaycanda ədəbiyyat yolunda böyük bir hərəkət əmələ gəlməsi"nə toxunmuşdur. Bu hərəkətin "Osmanlı ədəbiyyatının ağalıq xülyası cünbüşə gəl"məsinə səbəb olması da müəllif tərəfindən vurğulanmışdır. Türk Azərbaycan dilinin osmanlılaşdırılması üçün Əlibəy Hüseynzadə, Əhməd Kamal, Səbribəyzadə Xalid Ziya və sair insanların Bakıya gəlməsi faktı da Ə.Haqverdiyev tərəfindən qeyd edilmişdir. Ədib Əlibəy Hüseynzadənin "Füyuzat", Əhməd Kamalın "Yeni Füyuzat", Xalid Xürrəm Səbribəyzadənin "Şəlalə" jurnallarında türk Azərbaycan dilini osmanlılaşdırmağa cəhd etmələri və bu yöndə fəaliyyət göstərmələri açıqlanmışdır. Ə. Haqverdiyev Azərbaycan dilinin osmanlılaşdırılması zamanı ortaya çıxacaq problemli məsələlərə aydınlıq gətirməyə nail olur: "... türk sözləri isə də bizim üçün yabançıdır və əvəzlərində başqa türk sözlərimiz də var. Məsələn: "sırt" – çiyin, "erkək" – kişi. "Ərkək" sözü Azərbaycan türkü təsəvvüründə heyvaniyyəti təşkil edən bir sözdür" [1, s.378].

**Ə.Haqverdiyevin publisistikasının obrazları**

Ə.Haqverdiyevin publisist yazılarında obrazlar qalereyası zənginliyi ilə seçilir. Təsvir etdiyi hadisələri obrazlar vasitəsilə ifadə edən ədibin obrazları özlərini məhdud və geniş mənada əks etdirməyə qadirdir. Publisist yazılarında məhdud mənada təsvir etdiyi obrazlar silsiləsinə M.F.Axundzadənin, M.Qorkinin və digər ədiblər haqqında bəhs etdiyi məqalələrdə rast gəlinir. Geniş mənada təsvir etdiyi surətlər isə insanlarla bağlı olan canlı və cansız, yəni, insan surətini, təbiət surətini, əşya surətini, heyvan surətini əhatə edir. Məsələn, geniş mənada təsvir etdiyi obrazlardan biri "Bizim yabılığımız" məqaləsində təsvir etdiyi at surətidir. Müəllif atları cinsə görə köhlən və yabıya ayırmaqla, onlar arasındakı fərqliliyə nəzər salır, insanla müqayisə edərək oxşarlıq axtarır: "Müsəlman tayfası indiyədək yabılıqda olub, nə maarif arpasından və nə təməddün samanından və nə tərəqqi otundan ona qarnı dolusu indiyədək verilməyib. ...Biz də yabılığımızı bir ayrı işlərdə büruzə veririk" [1, s.317].

Müəllif geniş mənada təsvir etdiyi insan surətlərini də fərdiləşdirmə və ümumiləşdirmə yolu ilə yaradır. Ə.Haqverdiyev M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Qorki, X.X.Səbribəyzadə, Ə.Hüseynzadə, Molla Əhməd Mirzə və digər insanların obrazlarını oxucuya açıqlayır.

Müəllifin qələmə aldığı publisist yazılarda yazıçı obrazını görmək mümkündür. O, bir müəllif kimi öz portretini yaratmağa nail olur. Məsələn, "Təsəttüri-nisvana dair" publisist yazısında yazıçının portreti oxucunun gözündə canlanır: "Bədbəxtlikdəndirmi ya xoşbəxtlikdəndirmi, bilməyirəm, məndə bir azar var. Hər yerə getdim və eşitdim ki, orada bir müsəlman yığıncağı var, gərək özümü o yığıncağa salam. Nitq-filan demək əlimdən gəlməz. Amma tamaşaçılığı yaxşı bacarıram" [1, s.325]. Biz bu təsvirdə yazıçını natiqlik etməyi sevməyən bir şəxs kimi görürük.

Ə.Haqverdiyev real şəxslərin obrazını da verməyə nail ola bilir. Məsələn, "Molla Nəsrəddin haqqında xatiratım" məqaləsində Cəlil Məmmədquluzadənin obrazının təsviri ilə rastlaşırıq: "Mirzə Cəlil zatən az danışan, böyük məclislərdən qaçan, yığıncaq xoşlamayan, təklik sevən bir şəxs idi. Bununla bahəm, düşmənlə də görüşüb bir az söhbət etdikdən sonra ürəyini ələ alıb, özünə şərik

etməz idisə də, jurnal düşmənliyindən çəkindirirdi" [1, s.371]. Ədib bizə Mirzə Cəlili az danışan, təkliyə üstünlük verən, böyük yığıncaqları sevməyən kimi tanıtdırır.

Ə.Haqverdiyev bəzən obrazların təsvirində maraqlı bədii priyomlardan da istifadə edir. Mirzə Cəlilin obrazı onun, yəni Mirzə Cəlilin öz dili ilə açıqlanır: "Mən heç bir şeydən, hətta ölümdən də qorxmayıb həqiqəti yazacağam, bir vaxt olar mənim dostum düşmənimdən çox olar, mən ona əminəm" [1, s.372]. Mirzə Cəlilin öz sözləri ilə ədibin əqidəsindən dönməyən, mətin, mübariz obrazı gözümüzdə canlandırılır.

Müəllif bir məqalə içərisində təzad yarada bilən obraz yaratması ilə də diqqəti cəlb edə bilir. Məsələn, müəllif tərəfindən Mir Məhəmməd Kərim ağa qazının obrazının təqdimində bunun şahidi oluruq. Ə.Haqverdiyev Mir Məhəmməd Kərim ağa qazının əvvəl mütərəqqi ideyalar tərəfdarı olan müsbət bir şəxs kimi, daha sonra isə mütərəqqi ideyalara qarşı çıxan, şəxsi mənafeyini xalq mənafeyindən üstün tutan mənfi bir şəxs kimi təsvir etməklə, bir insanda formalaşan təzadı göstərməyə nail ola bilir: "Mir Məhəmməd Kərim ağa qazı deyildi, amma əhli-nüfuz idi. Çox nitqlər söyləndi, ruslardan, müsəlmanlardan danışan çox oldu. Mir Məhəmməd Kərim ağa çıxdı qabağa, hamı, o cümlədən mən, nəfəslərini çəkdilər içəri. Ağanın əvvəl sözü bu oldu: "Əl elmü fərizətün əla küll müslimin və müslimə" [1, s.325]. Bu kimi çıxışından fəxr hissi duyan ədibin illər sonra Mir Məhəmməd Kərim ağa qazının nitqini dinləyərkən pərişan olmasını vurğulaya bilir: "...Ağa nitqini tamam edəntək durdum məclisdən çıxdım. Yolu necə gəldim, bilməyirəm. Bir də gördüm ki, "İslamiyyə" mehmanxanasında öz nömrəmdə əyləşmişəm. Bir saatda özümə gəldim, ayılan kimi məni bir ağlamaq tutdu. Çox ağladım və dedim: "Xudaya, bu nə işdir? Məktəb rəsmgüşadındakı nitq nə idi, bu nitq nədir? Bu şəxsin əqidəsi nədir?" [1, s.326]. Məlumdur ki, müsbət surətlər bəzi nöqsanlara malik ola bilər. Xalq mənafeyi ilə ziddiyyət təşkil etməyən nöqsanlara görə bu surətləri mənfi surətlərə aid etmək doğru deyil. Lakin Mir Məhəmməd Kərim ağa qazının şəxsi mənafeyini xalq mənafeyindən üstün tutması onu mənfi surətlər sırasına aid edir.

**Ə.Haqverdiyevin publisistikasının bədii təsvir və ifadə vasitələri, dil xüsusiyyətləri**

Ə.Haqverdiyev qələmə aldığı publisist məqalələrdə bədii təsvir və ifadə vasitələrindən geniş şəkildə istifadə edir. Müəllif bədii dilin ən mühüm tərkib hissələri olan bədii təsvir vasitələrinə aid epitet, təşbeh, metafor, metonimiya, simvol, ifadə vasitələrinə aid bədii sual, kinayə, inversiya və s.-dən istifadə etməklə çatdırmaq istədiyi fikirləri, hadisələrin məğzini açıqlamağa nail olur. Ə.Haqverdiyevin istər bədii yaradıcılığının, istərsə də publisist yazılarının bədii dilinin tərkibi özünəməxsusluğu və zənginliyi fərqlənir. Bədii dilin tərkibinə aid olan arxaizmlər, vulqarizmlər, varvarizmlər və s. ədibin yaradıcılığında özünü qabarıq şəkildə göstərir.

Ə.Haqverdiyev publisistikasında bədii təsvir vasitələrinə tez-tez müraciət etməsi ilə diqqəti cəlb edir. Bu ədibin təsvir etdiyi obraz və hadisələri, qaldırdığı problemlərin əhəmiyyətini üstüörtülü şəkildə oxucusuna çatdırmaq məqsədi güdür. Yazıçının "Bizim yabılığımız" publisist yazısında istifadə etdiyi təsvir vasitəsinə diqqət yetirək. Müəllif insanları da atların cinsləri, yəni köhlən və yabı ilə müqayisəsini apararaq siyasi məqamlara da üstüörtülü münasibətini bildirir: "Müsəlman tayfası indiyədək yabılıqda olub, nə maarif arpasından və nə təməddün samanından və nə tərəqqi otundan ona qarnı dolusu indiyədək verilməyib. Hər vəqt istəyiblər ki, köhlənlər yediyi axura bu da bir ağzını uzatsın, o saat başından dəyənək dəyib: Pobedonostsev, İlminski, Çirivanski, İqnatyev və bizim rəfiq Levitski tək dəyənəklər həmişə yabıların təpəsinin üstündə olub. Üç yüz il bu növ yabılıqda qalıb, indi özümüz isə yabıxasiyyət olmuşuq" [1, s.317].

Ədib qələmə aldığı publisist yazılarda bir predmetin müəyyən əlamətə görə özündən daha qüvvətli başqa predmetə oxşadılmasına üstünlük verir. Məsələn, "Nə ağır yollar! Nə parlaq nailiyyət!" cümlələrində "ağır yol", "parlaq niyyət" müfəssəl təşbehdir. Belə ki, müfəssəl təşbehdə (müxtəsər təşbeh) iki ünsür iştirak edir: bənzəyən tərəf və bənzədilən tərəf. "Ağır yol", yəni keçilməsi çətin olan, "parlaq niyyət" isə xoş niyyət olmasının göstərilməsi məqsədi güdmüşdür.

Ə.Haqverdiyev məqalələrində də bədii əsərlərində olduğu kimi istiarələrə müraciət etmişdir. Predmetin müəyyən əlamətini başqa bir predmet üzərinə köçürməyə qadir olan müəllif əsərlərinə rəngarənglik qata bilir. Müəllif işlətdiyi "ürəyini ələ alıb" ifadəsi metafora nümunəsidir: "Bununla bahəm, düşmənlə də görüşüb bir az söhbət etdikdən sonra ürəyini ələ alıb, özünə şərik etməz idisə də, jurnal düşmənliyindən çəkindirirdi" [1, s.371]. Belə ki, ürəklə ələ almaq arasında birbaşa heç bir bağlılıq yoxdur. "Ürəyini ələ alıb" frazeoloji birləşməsinin mənası xoş sözlərlə dilə tutmaq, şirin sözlərlə razı salmağa, etimadını, məhəbbətini qazanmağa çalışmaq, ürəyinə yol tapmaq, ürəyinə girmək, qılığına girmək kimi mənasını ifadə edir.

Yaxud Ə.Haqverdiyevin işlətdiyi "Əlibəy yolu" istiarədir: "Əlibəydən sonra Əhməd Kamal "Yeni Füyuzat" jurnalının başında əyləşib Əlibəy yolu ilə getdi. "Ə.Haqverdiyevin işlətdiyi "Əlibəy yolu" metaforasında bənzədilən atılır, onun əlaməti bənzəyənin üzərinə köçürülür. Ə. Haqverdiyev Əhməd Kamalın "Yeni Füyuzat" jurnalının rəhbəri olduğu müddətdə Əlibəy Hüseynzadənin "Füyuzat" jurnalında türk Azərbaycan dilini osmanlılaşdırma işini davam etdirməsinə işarə etmişdir.

Ə.Haqverdiyev qələmə almış olduğu publisist yazılarında predmeti bildirən söz əvəzinə , onunla əlaqədar başqa söz işlətməyə də üstünlük vermişdir. Müəllif "Molla Nəsrəddin haqqında xatiratım" adlı publisist yazısında "Molla Nəsrəddin" dövrü işlətməklə metonimiya yaratmağa nail ola bilmişdir: "Hesabsız hədə kağızlarına, föhşlərə, həcvlərə, maddi və "mənəvi" vədlərə etina etməyərək öz tutduğu məqsəddən, məsləkdən bir qədər geri durmamaqla Mirzə Cəlil öz azacıq dostları ilə birlikdə axırda qalib gəlib, həmişəlik bir ad və Azərbaycan ədəbiyyatında xüsusi bir cığır – "Molla Nəsrəddin" dövrü qoya bildi" [1, s.370-371].

Ə.Haqverdiyevin bədii yaradıcılığında hər hansı bir fikrini örtülü şəkildə təqdim etmək üçün rəmzlərə müraciət etməsi diqqəti cəlb edir. Ədib özü bu amilə toxunaraq, qələmə almış olduğu publisist yazılarında açıqlamağa cəhd etmişdir.

Ə. Haqverdiyev "Pəri cadu" haqqında qeydlər" adlı publisist yazısında XIX əsrin sonu, XX əsrin əvvəlində Avropa ədəbiyyatında formalaşmış simvolizm cərəyanına aydınlıq gətirərək, əsər qələmə alması faktına da toxunur: "Doxsanıncı illərin ortasında simvolizm deyilən bir ədəbiyyat üsulu teatro səhnəsinə atıldı. Alman ədibi Hauptmanın "Qərq olmuş çan" sərlövhəli faciəsi mədəniyyət aləminə bir şəşəə saldı. Bu üsulun Şərq ruhuna xeyli uyğun olması məni artıq həvəsə gətirdi. Və mən Şərq həyatından götürülmüş simvolik bir əsər teatromuz üçün yazmaq fikrinə düşdüm". XIX əsrin sonlarında naturalizmə qarşı polemikada yaranmış simvolizm cərəyanında qələmə aldığı əsərin uğur qazanmasını məhz əsərinin yeni cərəyanda, yəni naturalizmin ifratlığından qaçmaqla həyat faktına qarşı simvolu (ümumiləşdirməni) qoyaraq əsər qələmə alması faktına aydınlıq gətirir: "Nəhayət 1901-ci sənədə "Pəri cadu" nam əsərimi yazdım. Bu neçə ilin müddətində "Pəri cadu"nun səhnədə müvəffəqiyyət qazanmasına səbəb, haman mən dediyim simvolizmin bizim ruhumuza uyğun olmasıdır" [1, s.332]. Ə.Haqverdiyevin yaradıcılığını simvolik ünsürlərlə zənginləşdirməsi Yaşar Qarayev tərəfindən vurğulanır: "Haqverdiyev ilk dəfə olaraq Azərbaycan tragediyasına bədii-psixoloji təsir vasitəsi kimi teyf ünsür gətirir, bununla da milli faciənin poetik ifadə və obrazlar sistemini simvolik bir ünsürlə də zənginləşdirir" [2, s.116-117]. Mir Cəlal da Ə.Haqverdiyevin "Pəri cadu" əsərində simvollardan istifadə etmə məqamına toxunur: "Burada ədib fantastik bir adam, simvolik bir həyat təsvirini vermişdir. Məhəbbətində inkisari-xiyala uğramış Pəri adlı bir qızın intiqam hissi ilə yaşadığını və bunun üçün dəhşətli qara qüvvələrdən (şeytan, cin və s.) belə istifadə etdiyini göstərərək müəllif insan təbiətinə xas olan iki zidd qüvvənin çarpışmasına, klassik Şərq ədəbiyyatında çox dəb olan xeyir-şər mübarizəsinə işarə edir. Ancaq bu işarə, doğrudan da, əsərdə bir "işarə" dərəcəsində olduğundan, hadisələr xəyalat, mövhumi səhnələr halında alındığından, adamlar və duyğular dumanlı bir pərdə ilə bürünüb mücərrədləşdirildiyindən əsər tam simvolik bir xarakter almışdır" [3, s.117-118].

Ə.Haqverdiyevin həyat həqiqətlərini simvol dərəcəsində ümumiləşməyə üstünlük verməsi ictimaiyyət tərəfindən bir mənalı qarşılanmır. Bu əsasən semiotikanın kifayət qədər yayılmaması ilə

əlaqəli idi. Ə.Haqverdiyev əsərinin ictimaiyyət tərəfindən birmənalı qəbul edilməməsi faktına toxunmuşdur: “Pəri cadu”ya mövhumat adı qoyurlar... “Pəri cadu”nun ideyası: hər kəsin öz əlinin əməli onun müqəddəratını təmin edər. İnsan, taleyini kənarda axtarmayıb öz-özündə axtarmalıdır” [1, s.332]. Əziz Şərif “Pəri cadu” əsərini simvolik dram əsəri kimi təqdim edərək qeyd edir ki, “Haqverdiyev, böyük sənətkarlıqla, pisliyi qüdrətli olduğu heç bir şəxsi azadlıq olmadığı pulun gücündən üstün olduğu yerdəki xoşbəxtliyin mümkünsüz olduğunu göstərir. Yalnız təkzib edən kəndli Qurban, üsyançı intellekt Fərhad vəfat etdiyinə görə öldü, kütlələrin dəstəyi olmadan tək mübarizə aparmağa çalışdı” [5, s.98].

Ə.Haqverdiyev qələmə aldığı publisist yazıların emosionallığını, təsir gücünü artırmaq üçün bədii ifadə vasitələrinə tez-tez müraciət etmişdir. Müəllif istifadə etdiyi poetik sintaksislərlə oxucuya çatdırmaq istədiyi fikrə əlvanlıq qata bilir. Məsələn, ədibin qələmə almış olduğu publisist yazılardakı fikirlərin məhz emosional təsirini artırmaq üçün tez-tez bədii sualla müraciət etməsini müşahidə edirik: “Görəsən, aya, bir vaxt olacaqdırmı ki, Sabirə babı, laməzhəb adı qoyub, dərbədər salanların övladı öz ata-babalarının hərəkətindən xəcalət çəkəcəklər və bizdə də o insaf olacaqdırmı ki, Sabirin bizə tapşırdığı əmanətini atasına bərabər edək?! Yoxsa biz də millət bayquşlarını sevindirib, Sabir yolunda ağdan qaraya əlimizi vurmayacağıq?” [1, s.332].

Ə.Haqverdiyev bədii suala müraciət etməsi zamanı verilən suallar cavabsız qalan suallar kimi özünü göstərir. Müəllif verdiyi suallar vasitəsilə fikirlərini cavablandırmır, cavabları oxucusunun öhdəsinə buraxır: “Mən bu məqalələri oxuduqca fikir edirdim: “Görəsən, doğrudanmı millət iki tərəf olub, övrət məsələsini birmərrə həll edib qurtarmaq istəyirlər? Yainki millətin bu işlərə qarışacağı yoxdur. Məhz qəzetlərin sözləri qurtarıb, köhnə palan içi tökürlər?” [1, s.323]. Ədibin istifadə etdiyi ritorik suallar əsərdəki bədii fikirlərin qüvvətli şəkildə təqdim edən mükəmməl vasitə kimi özünü göstərir.

Əbdürrəhim bəy Haqverdiyev publisistikasının dilində arxaizmlərə də müraciət etməsi ilə diqqəti cəlb edir. Məsələn, “Müsəlman tayfası indiyədək yabılıqda olub, nə maarif arpasından və nə təməddün samanından və nə tərəqqi otundan ona qarnı dolusu indiyədək verilməyib” cümləsində istifadə etdiyi “təməddün” sözü fars sözüdür ki, hərfi tərcüməsi mədəniyyət, mədəniləşmə, tərəqqi deməkdir.

“Əlbəttə, hər bir təsnif barəsində hər şəxs öz təsəvvürünü yazmaqda və danışmaqda hürrdür” cümləsində ədibin istifadə etdiyi “hürr” sözü azad, müstəqil mənasındadır.

“Təsəttüri-nisvana dair” adlı məqalənin adlarında əksini tapmış “təsəttür” sözü örtünmə, “Nisvan” sözü isə qadınlar mənasını bildirir.

Ədibin “Bəliyyə” (bəla, müsibət), müvərrix (tarixçi), təsnifat, təlifat (əsər), müğayir (zidd), nəfy (sürgün), havi (əhatə edən), vəzi (qoyuluş), sənayei-nəfsə (incəsənət), bilümum (ümumən), qəyuranə (qürurla, mərdliklə) və s. bu kimi sözlər də arxaizmlər kimi tarixdə qalmış, müasir dövrümüzdə ədəbi dildə işlənilmir.

## Nəticə / *Conclusion*

Ə.Haqverdiyev bədii əsərdə işlədilən, amma ədəbi dildə istifadə edilməyən alınma sözlərə də müraciət etmişdir. Məsələn, “Bu idarə özü ucuz şöhrət axtaranları, şöhrət yolunda dinini, imanını, əqidəsini qara pula satıb axırda herostrat şöhrəti qazananları və qurd olub camaat arasında qoyun cildində gəzənləri çox yaxşı tanıyır” [1, s.319] cümləsində “herostrat” sözünü işlətmişdir. “Herostrat” qədim yunan şəhəri olmuş Efes şəhərinin sakini olmuşdur. Tarixdə adını yaşatmaq üçün e.ə. 356-cı ilin yay aylarında Artemida xramını qəsdən yandırmışdır. Efeslər onu edam edərək, adının heç vaxt xatırlanmaması haqqında qərar çıxartmışdılar. Lakin qədim yunan tarixçisi və natiqi Feopomp Herostartın törətdiyi cinayəti qələmə almaqla onu tarixdə yaşada bilmişdir.

Ə.Haqverdiyev onu “ucuz şöhrət” axtarışında olmasını iddia edənlərə qarşı çıxaraq, “ucuz şöhrət” axtarışında olanları məhz herostart şöhrəti axtaranlara bənzədir.

Ədibin yaradıcılığında istifadə etdiyi vulqarizmlər fikrini, təsvir etdiyi obrazın mənəvi dünyasını açıqlamaq üçün istifadə etməsi diqqətdən yayınmır. Ə. Haqverdiyevin "axır əlacım kəsilib, dedim, mən də bu məsələnin üstündə bir-iki qələm vurum, bəlkə bu şoğərib məndən əl çəkib gözümün qabağından gedə" cümləsində ədəbi dildə işlənməyən "şoğərib" vulqarizmindən istifadə edərək, başqaları ilə rəftarı haqqında təsəvvür yaradır. Bilirik ki, ədəbi dildə işlənməyən "şoğərib" sözü xoşagəlməz bir şey haqqında yüngül söyüş, ya da ki, qarğış mənasında işlənən vulqar sözlərdən biridir.

**Ədəbiyyat / *References***

1. Haqverdiyev, Ə. Seçilmiş əsərləri. İki cilddə. II cild. – Bakı: Lider, – 2005, – 408 s.
2. Qarayev, Y. Seçilmiş əsərləri. (5 cilddə) I cild. – Bakı: Elm, – 2015, – 668 s.
3. Paşayev, M.C. Azərbaycanda ədəbi məktəblər (1905-1917). – Bakı, – 2004, – 391 s.
4. Vəliyeva, S. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası. – Bakı: Azərbaycan, – 2003. – 128 s.
5. Шариф, А. Выдающийся азербайджанский писатель // «Литературная газета», – 1945, – 26 мая. (Театральный календарь). Искусство (издательство). – 1970. 98.

## Публицистика Абдуррахим бека Ахвердиева

**Салида Шарифова**
Доктор филологических наук, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: sharifovasalida@rambler.ru

**Резюме.** Наряду с художественным творчеством Абдуррахим бека Ахвердиева важное значение для азербайджанской культуры имеют и его публицистические произведения. В своей публицистике Абдуррахим бек Ахвердиев через призму позиции интеллигента раскрыл отношение к социально-политическим проблемам. Проблематика публицистики Абдуррахим бека Ахвердиева охватывает общественно-политические и социальные процессы, проблемы литературы и искусства азербайджанского общества конца XIX – начала XX века.

Абдуррахим бек Ахвердиев в своих публицистических произведениях выделил большое место творчеству Мирзы Фатали Ахундзаде. Следует отметить, что журналистское наследие Абдуррахим бека Ахвердиева свидетельствует о глубоких его познаниях не только азербайджанской, но и мировой литературы.

Галерея образов публицистического творчества А.Ахвердиева отличается своей широтой. Абдуррахим бек Ахвердиев раскрывает те или иные события посредством образов отдельных писателей. Ряд персонажей, которые он в ограниченном плане описывает в своих публицистических произведениях, можно найти в статьях об М.Ф.Ахундзаде, М.Горьком и других писателях. К создаваемым им образам в широком смысле можно отнести не только одушевленные образы, но и неодушевленные предметы, то есть образы природы, животного мира и т.д.

В публицистике Абдуррахим бека Ахвердиева широко используются средства художественной выразительности. Автор часто обращается к эпитету, аллюзии, метафоре, метонимии, символам, риторическим вопросам, сарказмам, инверсии и т. д., являющимся важнейшими компонентами художественного языка. Публицистика Абдуррахим бека Ахвердиева характеризуется художественностью языка.

**Ключевые слова:** Абдуррахим бек Ахвердиев, публицистика, национальная идеология, критика, статья